

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 81 (20.982)

3 may 2014-cü il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Ulu öndər Heydər Əliyevin anadan olmasının 91-ci ildönümü münasibətilə tədbirlər keçirilir



**Ulu öndər Heydər Əliyevin anadan olmasının 91-ci ildönümü ilə əlaqədar Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Naxçıvan Bölməsində “Heydər Əliyev lektoriyası”nın 59-cu məşğələsi keçirilib. 59-cu məşğələ “Heydər Əliyev və Naxçıvanın muxtariyyət məsələsi” mövzusuna həsr olunub.**

Lektoriyanı giriş sözü ilə açan AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, professor Fəxrəddin Səfərli qeyd edib ki, Naxçıvanın muxtariyyətinin XX əsrin 90-cı illərində qorunub saxlanılması bilavasitə ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Muxtariyyət statusunun beynəlxalq hüquqi əsaslı olması Naxçıvanı həm də erməni təcavüzündən qoruyub.

AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev “Heydər Əliyev və Naxçıvanın muxtariyyət məsələsi” mövzusunda məruzə ilə çıxış edib. O, Naxçıvana muxtariyyət statusu verilməsinin zəruri siyasi amillərindən danışıb. Bildirilib ki, çox qədim tarixə, mühüm coğrafi, siyasi strateji əhəmiyyətə malik Naxçıvana qarşı ermənilərin əsassız iddialarının qarşısının alınmasında, bu bölgənin ərazisinin toxunulmazlığında 1921-ci ildə imzalanan beynəlxalq Moskva və Qars müqavilələri mühüm əhəmiyyət kəsb edir.

Məruzədə XX əsrin 90-cı illərinin əvvəllərində ümummilli lider Heydər Əliyev tərəfindən bu müqavilələrin beynəlxalq səviyyədə yenidən siyasi gündəmə gətirilməsinin əhəmiyyətindən də bəhs olunub. Vurğulanıb ki, Naxçıvanın muxtariyyət qazanmasını dövlətçilik tariximizdə mühüm nailiyyət kimi qiymətləndirən ümummilli lider Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində çalışdığı dövrdə Naxçıvanın toxunulmazlığı istiqamətində görülən tədbirlər nəticəsində, bütövlükdə, Azərbaycanın tərəqqisi, milli iqtisadi strategiyanın müəyyənləşdirilməsi, diplomatik münasibətlərin inkişafı kimi mühüm tarixi və siyasi məsələlərin həllinə nail olunub.

* * *

***Yeni Azərbaycan Partiyası (YAP) Kəngərli Rayon Təşkilatında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə həsr olunmuş tədbir keçirilmişdir.***

Tədbiri YAP Kəngərli Rayon Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Fazil Abbasov açaraq məruzə ilə çıxış etmişdir. Bildirilmişdir ki, Azərbaycanın 23 ilə yaxın müstəqillik tarixini vərəqləsək, ümummilli lider Heydər Əliyevin xalqımız, dövlətimiz qarşısındakı xidmətlərinin miqyasının nə qədər böyük olduğunu görərik. Müasir dövrdə Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi, onun xarici iqtisadi əlaqələrinin sistemli olaraq genişlənməsi və dünya iqtisadiyyatına daha dərin şəkildə inteqrasiyası məhz 1970-1980-ci illərdə ulu öndər Heydər Əliyevin ölkəmizə birinci rəhbərliyi dövründə təməli qoyulmuş potensiala əsaslanır.

Vurğulanmışdır ki, müstəqil Azərbaycan ümummilli lider Heydər Əliyevin şah əsəridir. Azərbaycanlı olmağı ilə həmişə fəxr edən dahi rəhbərin keçdiyi şərəfli ömür yolu, Azərbaycan xalqı qarşısında göstərdiyi misilsiz xidmətlər müasirlərimiz, eləcə də gələcək nəsillər üçün əsl örnəkdir.

Sonra partiya üzvlərindən Sevda Quliyevanın, Ehtimad Məmmədovun, Leyli Həsənovanın, Türkanə Babayevanın və Minurə Əliyevanın çıxışları olmuşdur.

Sonda məktəblilərin ifasında ulu öndərə həsr olunmuş şeirlər bədii qiraət edilmişdir.

* * *

***Dünən Naxçıvan Muxtar Respublikası Texniki Yaradıcılıq Mərkəzində ümummilli lider Heydər Əliyevin anadan olmasının 91-ci ildönümü münasibətilə “Heydər Əliyev və Naxçıvanın muxtariyyəti” mövzusunda tədbir keçirilmişdir.***

Əvvəlcə tədbir iştirakçıları ümummilli lider Heydər Əliyevin anadan olmasının 91-ci ildönümü və Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illiyinə həsr olunmuş əl işlərindən ibarət sərgiyə baxmışlar.

Mərkəzin direktoru Sevinc Mirzəyeva “Heydər Əliyev və Naxçıvanın muxtariyyəti” mövzusunda məruzə ilə çıxış etmişdir. Bildirilmişdir ki, ötən əsrin sonlarında SSRİ-nin dağılmasından sonra Azərbaycanda, o cümlədən onun tərkib hissəsi olan Naxçıvanda mürəkkəb ictimai-siyasi hadisələr yaşanmışdır. Sovet rəhbərliyinin ölkəmizin milli maraqlarına zidd siyasəti, mənfur qonşularımız olan ermənilərin Naxçıvana əsassız ərazi iddiaları muxtar respublikamızın gələcək taleyini ciddi təhlükə altına almışdır. Məhz həmin dövrdə Azərbaycan xalqının müdrik oğlu, ümummilli lider Heydər Əliyev Moskvadan Bakıya, sonra isə Naxçıvana gələrək regionun təhlükəsizliyinin qorunmasında misilsiz xidmətlər göstərmişdir. Ermənilərin muxtar respublikaya silahlı hücumlarının qarşısının alınması yalnız dahi şəxsiyyətin qətiyyətli addımlarının nəticəsində mümkün olmuşdur. Belə ki, ulu öndər Heydər Əliyevin səyləri nəticəsində Naxçıvanın muxtariyyət statusunu təsdiq edən Qars müqaviləsi yenidən gündəmə gətirilmiş və dünya dövlətlərinin diqqətinə çatdırılmışdır. 1921-ci ildə imzalanmış bu müqavilənin hüquqi statusunun tanınması regionun təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynamışdır. 1990-1993-cü illərdə ümummilli lider Heydər Əliyevin Naxçıvandakı siyasi fəaliyyəti muxtar respublikanın təhlükəsizliyini təmin etməklə yanaşı, ölkəmizin müstəqilliyinin qorunmasına, onun dövlətçilik ideyalarının formalaşmasına zəmin yaratmışdır. Dahi şəxsiyyətin 1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdışı isə ölkəmizi, eyni zamanda onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasını inkişaf və tərəqqi yoluna çıxarmışdır.

Tədbirdə Texniki Yaradıcılıq Mərkəzinin şöbə müdirləri Lalə Qənbərova və Məhbubə Məmmədovanın çıxışları olmuşdur.

Sonra mərkəzin dərnək üzvlərinin ifasında ulu öndərə həsr olunmuş şeirlər bədii qiraət olunmuşdur.

**Xəbərlər şöbəsi**

## Peşəyönümü məşğələlər davam etdirilir

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 18 dekabr 2013-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş “2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”nın müvafiq bəndinin (Ümumtəhsil məktəblərində yuxarı sinif şagirdlərinin peşə seçiminə köməklik məqsədilə onlara tədris müddəti ərzində əmək bazarının tələbinə uyğun peşə və ixtisaslar barədə məlumatların verilməsi) icrasına uyğun olaraq, Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Təhsil Nazirliyi ilə razılaşdırılmış qrafikə əsasən, muxtar respublikanın ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdləri üçün peşəyönümü məşğələlər təşkil olunur. Bu günədək, ümumilikdə, 153 ümumtəhsil məktəbinin yuxarı sinif şagirdlərinə peşəyönümü məşğələlər keçilmişdir.

Bu istiqamətdə keçirilən tədbirlərin davamı olaraq, mayın 2-də Naxçıvan şəhərindəki Qızlar Liseyinin və Yarımca kənd tam orta məktəbinin yuxarı sinif şagirdlərinin iştirakı ilə növbəti peşəyönümü məşğələlər keçilmişdir. Məşğələdə Naxçıvan Şəhər və Babək Rayon Məşğulluq mərkəzlərinin əməkdaşları tərəfindən əyani vasitələrlə məşğulluq xidmətinin fəaliyyəti, muxtar respublikanın əmək bazarının tələbinə uyğun peşə və ixtisaslar barədə məlumatlar verilmiş və şagirdlərin hansı peşələrə maraq göstərmələri barədə sorğu keçirilmişdir.

Ümumiyyətlə, peşəyönümü məşğələlərin təşkili əmək bazarının tələblərinə uyğun işçi qüvvəsinin formalaşmasına, şagirdlərin meyil və maraqları nəzərə alınaraq onların düzgün peşə seçimi etməsinə imkanlar yaradır.

Məşğələlər davam etdirilir.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

***Dünən Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyində ümummilli lider Heydər Əliyevin anadan olmasının 91-ci ildönümü münasibətilə “Heydər Əliyev və Azərbaycan gəncliyi” mövzusunda açıq dərs keçilmişdir.***

## “Heydər Əliyev və Azərbaycan gəncliyi” mövzusunda açıq dərs



Naxçıvan Dövlət Texniki Kollecinin tələbələrinin iştirak etdiyi açıq dərsdə məktəbin direktoru Məhəmməd Qəribov mühazirə oxumuşdur. Qeyd olunmuşdur ki, gənclər hər bir ölkənin ictimai-siyasi və elmi-mədəni həyatında potensial qüvvə kimi tanınırlar. Ümummilli lider Heydər Əliyev də həmişə gənclərə güvənərək onlara böyük etimad göstərmişdir. Azərbaycanda gənclər siyasəti həmişə dövlət siyasətinin əsas tərkib hissəsi olmuş və Azərbaycan gəncliyi dövlətin diqqət və qayğısını hər zaman öz üzərində hiss etmişdir. Dahi şəxsiyyət Heydər Əliyev ölkəmizə rəhbərlik etdiyi dövrlərdə gənclərin himayədarı olaraq sağlam düşüncəli yeni nəslin yetişdirilməsini dövlət və cəmiyyətin mühüm vəzifəsi hesab etmiş, gənclərin cəmiyyət quruculuğunun bütün sferalarında təmsil olunmalarına geniş imkanlar yaratmışdır. Bildirilmişdir ki, ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulan gənclər siyasətinin əsas məqsədi yeni nəslin fiziki, mənəvi-psixoloji cəhətdən sağlam yetişməsini, istedadlı gənclərin üzə çıxarılması və onların ölkənin gələcəyinə töhfə verməsini təmin etmişdir. Məhz bunun nəticəsidir ki, bu gün ölkəmizdə, eyni zamanda muxtar respublikamızda yüksək intellektual səviyyəyə, milli düşüncəyə, vətənpərvərlik hissinə malik gənclər formalaşır. Azərbaycanın gələcəyi olan bu gəncliyin formalaşmasının təməlində Heydər Əliyev ideyalarına sədaqət dayanır.

Sonra açıq dərsin iştirakçıları ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunmuş filmə baxmış, muzeyin ekspozisiyası ilə tanış olmuşlar.

**Səbuhi HƏSƏNOV**

## “Naxçıvan – qədim mədəniyyət diyarı” adlı elmi konfrans keçirilmişdir

**Mayın 2-də Suraxanı rayonundakı Heydər Əliyev Mərkəzində “Naxçıvan – qədim mədəniyyət diyarı” adlı elmi konfrans keçirilmişdir.**

AzərTAc xəbər verir ki, Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş konfransı Bakı Şəhər Mədəniyyət və Turizm İdarəsi təşkil etmişdir.

Əvvəlcə konfrans iştirakçıları ümummilli lider Heydər Əliyevin mərkəzin qarşısındakı abidəsi önünə əklil qoymuş, muzey bölməsi ilə tanış olmuşlar.

Konfrans Naxçıvan Muxtar Respublikasının sürətli sosial-iqtisadi inkişafından bəhs edən videoçarxın nümayişi ilə başlamışdır. Diqqətə çatdırılmışdır ki, bu konfrans Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin “Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinin keçirilməsi haqqında” 2014-cü il 14 yanvar tarixli Sərəncamına əsasən keçirilən tədbirlərdən biridir.

Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik İsa Həbibbəyli konfransda “Nuh çıxandan Naxçıvana: tarix və müasirlik” mövzusunda məruzə ilə çıxış etmişdir. Akademik İ.Həbibbəyli muxtar respublikanın tarixi, mədəniyyəti haqqında ətraflı məlumat vermişdir.

Daha sonra Azərbaycan Milli Elmlər Akademiyasının Folklor İnstitutunun direktoru, filologiya elmləri doktoru Muxtar İmanovun “Naxçıvanın folkloru haqqında”, Azərbaycan Milli Elmlər Akademiyasının Ədəbiyyat İnstitutunun şöbə müdiri, filologiya elmləri doktoru, professor Tahirə Məmmədin “Naxçıvanın ədəbi mühiti haqqında”, Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru Səfər Aşurovun “Naxçıvanın tarixi haqqında” məruzələri dinlənilmişdir.

Bakı Şəhər İcra Hakimiyyəti başçısının müavini Fidumə Hüseynova, Naxçıvan Muxtar Respublikasının Bakı şəhərindəki Daimi Nümayəndəliyi rəhbərinin müavini Bəxtiyar Əsgərov, Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı İlqar Abbasov çıxış edərək muxtar respublikanın dinamik sosial-iqtisadi inkişafı, həyata keçirilən böyük quruculuq işləri barədə məlumat vermişlər. Xüsusi vurğulanmışdır ki, muxtar respublikanın əhalisi müstəqil Azərbaycan Respublikasının qurulması və möhkəmləndirilməsi, ölkədə demokratik dəyərlərin bərqərar olması kimi amallara qovuşmaq üçün ulu öndər Heydər Əliyevin respublika rəhbərliyinə qayıtması uğrunda mübarizənin ön sıralarında getmişdir.

Bildirilmişdir ki, gündən-günə inkişaf edən muxtar respublikada son illər uğurlu iqtisadi islahatlar həyata keçirilmiş, sahibkarlığın inkişafı üçün geniş imkanlar yaradılmışdır.

Sonda konfrans iştirakçıları ulu öndər Heydər Əliyevin muxtar respublika ilə bağlı fəaliyyətini əks etdirən fotoslayda baxmışlar.

# Ulu öndər Heydər Əliyevin dövlətçilik təlimində Azərbaycan tarixi məsələləri

***Xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə gəlişinin ilk günlərindən onun genişmiqyaslı fəaliyyətində Azərbaycan tarixi və mədəniyyətinin öyrənilməsi, öyrədilməsi, tədqiqi və təbliği məsələləri əsas yerlərdən birini tutmuş, ön planda durmuşdur. Azərbaycan tarixinin bir sıra aktual məsələlərinin, o cümlədən xalqımızın mənşəyi, dövlətçiliyimizin təşəkkülü və formalaşması, tariximizin ümumdünya tarixində yeri və sair bu kimi mühüm tarixi problemlərin hərtərəfli, dərindən, ən başlıcası obyektiv tədqiqi ulu öndər tərəfindən tarixçilər qarşısında aktual və təxirəsalınmaz vəzifə kimi qoyulmuşdu.***



Tariximizə və tarix-mədəniyyət abidələrinə böyük diqqət və qayğı göstərən dahi şəxsiyyət Heydər Əliyevin birbaşa rəhbərliyi ilə ötən əsrin 70-80-ci illərində bir sıra tədbirlər həyata keçirilmiş, ilk növbədə, ən yüksək səviyyədə bu sahədə görüləcək işlərin istiqamətlərini müəyyən edən müzakirələr aparılmış, qərarlar qəbul edilmişdir. Bu cəhətdən Azərbaycan SSR Ali Sovetinin 1973-cü ilin sentyabrında keçirilən sessiyasının gündəliyinə Azərbaycan ərazisindəki mədəniyyət abidələrinin vəziyyəti və onların qorunması tədbirləri haqqında məsələnin daxil edilməsi və müzakirə olunması diqqəti cəlb edir. Bunun ardınca ulu öndərin rəhbərliyi ilə Azərbaycan KP MK-nın 10 sentyabr 1976-cı ildə qəbul etdiyi "Azərbaycan SSR-də tarix və mədəniyyət abidələrinin mühafizəsi və bərpası işini yaxşılaşdırmaq haqqında" Qərar ölkə ərazisində qeyd olunan istiqamətdə mühüm işlər aparmaq üçün geniş üfüqlər açmışdır.

Bunlarla kifayətlənməyən ümummilli lider Heydər Əliyev bu sahədə aparılan genişmiqyaslı işlərin qanun çərçivəsində yerinə yetirilməsini təmin etmək məqsədilə Azərbaycan SSR Ali Sovetinin 21 iyul 1978-ci il tarixli sessiyasında "Tarix və mədəniyyət abidələrinin mühafizəsi və onlardan istifadə haqqında Azərbaycan SSR Qanunu"nun qəbul olunmasına, 27 yanvar 1982-ci ildə isə Azərbaycan Tarix və Mədəniyyət Abidələrinin Mühafizə Cəmiyyətinin Nizamnaməsinin Azərbaycan SSR Nazirlər Sovetində təsdiq edilməsinə nail olmuşdur. Beləliklə, ölkə ərazisindəki tarix və mədəniyyət abidələrinin bərpası, tədqiqi və qorunması məsələsi qanun və qərarlarla rəsmiləşdirilmiş, bu sahəyə cavabdeh olan aid təşkilatların vəzifələri müəyyənləşdirilmiş, onların məsuliyyətləri artırılmışdır. Burada qeyd etmək yerinə düşər ki, ulu öndər abidələrin qorunmasında hamının, xüsusilə rəhbər işçilərin rolunu həmişə ön plana çəkmiş və qeyd etmişdir ki, "Abidələrin qorunması hamının, xüsusilə rəhbər işçilərin diqqət mərkəzində olmalıdır. Tariximiz üçün müəyyən əhəmiyyət kəsb edən və yer altından tapılmış hər bir xırda əşya belə, qızıl qədər dəyərlidir".

1970-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) 50 illik yubileyində Azərbaycan dilində çıxış edən görkəmli dövlət xadimi Heydər Əliyev bir il sonra, 1971-ci ildə Azərbaycan Pedaqoji İnstitutunun (indiki ADPU) 50 illik yubileyində çıxış edərkən Azərbaycan tarixinin tədrisi məsələsindən bəhs etmiş, bununla əlaqədar tapşırıqlar vermişdi. Bundan sonra aparıcı ali məktəblərdə "Azərbaycan tarixi" kafedraları yaradılmış, fənnin tədrisinə ayrılan saatların miqdarı artırılmışdı. Bu məqsədlə ali və orta məktəblər üçün dərsliklər, proqramlar hazırlanmışdı.

Azərbaycan xalqının zəngin tarixi keçmişi, mədəni irsi daim ümummilli lider Heydər Əliyevin diqqət mərkəzində olmuşdur. O, abidələrin qorunmasına, bərpasına, təbliğinə və gələcək nəsillərə çatdırılmasına böyük önəm verirdi. XX yüzilliyin 70-ci illərində Qəbələ RLS tikilərkən erməni mühəndislərinin hazırladıqları plana əsasən, Azərbaycanın qədim paytaxt şəhərlərindən və mədəniyyət mərkəzlərindən olan Qəbələ yaşayış məskəni dağıdılmalı idi. Bundan xəbər tutan ümummilli liderimiz məsələyə dərhal reaksiya vermiş, Kreml səviyyəsində danışıqlar apararaq Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən olan Qəbələ şəhər yerinin dağıdılmasının qarşısını almışdı.

Sovet hakimiyyəti illərində orta əsr şəhəri, həmin dövrün şəhərsalma prinsiplərini və ənənələrini çox gözəl şəkildə qoruyub saxlamış Ordubad şəhərində tikinti işləri aparılarkən şəhərin memarlıq üslubu pozulur, görkəminə xələl gətirilir, hətta bəzi tarix-mədəniyyət abidələri dağıntıya məruz qalırdı. Beləliklə, Ordubad şəhəri müasirlik adı altında inşa edilən tikintilər hesabına öz əvvəlki görkəmini itirirdi. Ulu öndər Heydər Əliyev 1977-ci ildə Ordubadı "qoruq-şəhər" elan etmişdir. Bununla da, şəhərin toxunulmazlığı təmin olunmuşdur.

Azərbaycan arxeoloji irsinə və maddi-mədəniyyət nümunələrinə böyük maraq göstərən, onlara hörmət və ehtiramla yanaşan, diqqət və qayğısını əsirgəməyən ümummilli lider Heydər Əliyev Moskvada, SSRİ-nin rəhbər elitasında işlədiyi zaman doğma yerlərə – Azərbaycana gələndə vaxtının məhdud olmasına baxmayaraq, ölkə ərazisində indiyədək qalan tarix-mədəniyyət abidələrini də ziyarət edirdi. 1983-cü ilin sentyabrında Azərbaycanda olarkən qədim mədəniyyət, elm, təhsil, ticarət və sənətkarlıq mərkəzlərindən biri olan Şabran şəhərinə getmiş, orada arxeoloji tədqiqatlarla tanış olmuş və bu işin genişləndirilməsini tövsiyə etmişdi. Bundan sonra Şabranda bir neçə arxeoloji ekspedisiya fəaliyyətə başlamışdı. Həmçinin həmin vaxt respublika rəhbərliyinə Azərbaycanın orta əsr şəhərlərinin tarixinin hərtərəfli öyrənilməsi haqqında tapşırıqlar verilmişdi. Tapşırıqlara uyğun olaraq, bir sıra Azərbaycan şəhərlərinin (Gəncə, Bərdə, Naxçıvan, Qəbələ və sair) qədim və orta əsrlər dövrü tarixinin sistemli şəkildə öyrənilməsi üçün arxeoloji ekspedisiyalar işə başlamış, aparılan tədqiqatların nəticəsi olaraq monoqrafiya, kitab və məqalələr yazılmışdı.

Ulu öndər Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövrü də qeyd olunan istiqamətdə aparılan işlərlə zəngin olmuşdur. Ümummilli liderimizin təşəbbüsü və sədrliyi ilə Naxçıvan MSSR Ali Sovetinin 17 noyabr 1990-cı ildə keçirilən sessiyasında Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından "Sovet" və "Sosialist" sözləri çıxarılmış, muxtar respublikanın ali dövlət hakimiyyət orqanı olan "Ali Sovet" "Ali Məclis" adlandırılmış, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Naxçıvan Muxtar Respublikasının Dövlət bayrağı kimi qəbul edilmişdi.

Naxçıvanda işlədiyi dövrdə xalqımızın böyük oğlu Heydər Əliyev Naxçıvanın muxtariyyət statusuna qarşı yönəlmiş hücumları dəf etmiş, muxtariyyət statusunu qoruyub saxlamışdır. 1992-ci ilin martında Türkiyədə olarkən ulu öndər 1921-ci ildə bağlanmış Moskva və Qars müqavilələrinə əsasən, "Türkiyə Naxçıvanın ərazi bütövlüyünün təminatçısıdır" fikrinin bir daha vurğulanmasına nail olmaqla həm ölkə daxilində Naxçıvanın muxtariyyət statusunun ləğv olunmasına çalışanlara, həm bu işdə marağı olan xarici dövlətlərə, həm də düşmən Ermənistana sərt mesaj göndərmişdi. Beləliklə, həyata keçirilən bu tədbirlər nəticəsində Naxçıvanın muxtariyyət statusu qorunub saxlanmışdır.

Ümummilli liderimizin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrdə, həmçinin Azərbaycanda siyasi hakimiyyətinin ikinci dövründə də Naxçıvanda tariximizə, tarix-mədəniyyət abidələrimizə böyük diqqət və qayğı göstərilmiş, genişmiqyaslı abadlıq və quruculuq işləri aparılmışdır.

Milli-mənəvi dəyərlərimizə, müqəddəs yerlərimizə daim hörmət və ehtiramla yanaşan ümummilli liderimizin tövsiyə və tapşırığı ilə Azərbaycanda ən böyük ziyarətgahlardan biri, müqəddəs kitab "Qurani-Kərim"də adı xatırlanan Əshabi-Kəhf ziyarətgahını Naxçıvan-Ordubad magistral yolu ilə birləşdirən 14 kilometrlik yol yenidən qurulmuş, ziyarətgahda abadlıq və bərpa işləri aparılmışdır. Bu haqda ziyarətgahın girişində qoyulmuş qranit daş üzərində həkk edilmiş kitabədə oxuyuruq: "Əshabi-Kəhf ziyarətgahında bərpa və abadlıq işləri 1998-ci ildə Azərbaycan Prezidenti möhtərəm Heydər Əliyevin tapşırığı və himayəsi ilə görülmüşdür". Artıq tarixi sənədə çevrilmiş bu kitabə bu müqəddəs yerə gələn zəvvarlara, turistlərə, ümumiyyətlə, bütün insanlara xalqımızın ümummilli lideri Heydər Əliyevin xeyirxah əməllərindən biri haqqında məlumat verir və gələcəkdə də buraya gələnləri bu haqda məlumatlandıracaqdır.

Naxçıvanın maddi-mədəniyyətinin, xüsusən Gəmiqaya abidəsinin ümumbəşəri dəyərini və xalqımızın tarixinin öyrənilməsində elmi əhəmiyyətini yüksək qiymətləndirən ulu öndər Heydər Əliyev 2001-ci ildə muxtar respublikanın ərazisində geniş arxeoloji tədqiqatlar aparılmasını bir vəzifə kimi qarşıya qoymuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 26 aprel 2001-ci ildə "Ordubad rayonundakı Gəmiqaya abidəsinin tədqiq edilməsi haqqında" Sərəncam imzalamışdır. 2001-ci ilin avqustunda Gəmiqayaya elmi ekspedisiya təşkil edilmiş, abidənin əsaslı şəkildə yenidən öyrənilməsinə başlanmışdır. Ulu öndərin təşəbbüsü, tövsiyə və tapşırıqları əsasında Ordubad rayonunun Nəsirvaz kəndi yaxınlığındakı dəniz səviyyəsindən 3906 metr yüksəklikdə yerləşən Gəmiqaya abidəsinin sonrakı illərdə də tədqiqinin sistemli şəkildə həyata keçirilməsi dahi şəxsiyyətin Naxçıvanın maddi-mədəniyyət abidələrinin dərindən, ətraflı və hərtərəfli şəkildə öyrənilməsinə diqqət və qayğısının parlaq ifadəsidir.

Ümummilli liderin Azərbaycanda ikinci dəfə hakimiyyətə qayıdışından sonra onun fəaliyyətində Azərbaycan tarixinin bir sıra problemlərinin yenidən işlənməsi, Sovet hakimiyyəti illərində yasaq olunmuş mövzuların tədqiqi diqqət mərkəzində olmuşdur. Bu cəhətdən ümummilli lider Heydər Əliyevin 18 dekabr 1997-ci ildə imzaladığı "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" və 26 mart 1998-ci ildə imzaladığı "Azərbaycanlıların Soyqırımı haqqında" fərmanları xüsusilə qeyd etmək lazımdır. Məhz bu fərmanlardan sonra XX yüzillikdə tədqiqinə yasaq qoyulmuş, üstündən sükutla keçilmiş ermənilərin XX əsr boyu başımıza gətirdiyi müsibətlər, xalqımıza qarşı həyata keçirdiyi soyqırımlar və sair sistemli tədqiqat obyektinə çevrilmiş, bu məsələ ilə əlaqədar dissertasiyalar müdafiə olunmuş, çoxlu monoqrafiyalar, kitablar və məqalələr nəşr edilmişdir. Bu iş indi də davam etdirilməkdədir.

Dahi şəxsiyyət XIX-XX əsrlər tarixinin öyrənilməsinə xüsusi diqqət yetirir və qeyd edirdi ki, başqa dövrlərdən fərqli olaraq, XIX-XX əsr tariximiz daha çox təhrif edilmişdir. Ona görə də O, 31 yanvar 1997-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi və müxbir üzvləri ilə görüşündə tarixçilərin qarşısında Azərbaycanın XIX-XX əsrlər tarixinin obyektiv, olduğu kimi yazılmasını təxirəsalınmaz vəzifə kimi qoymuş və demişdir: *"...indi akademiyanın qarşısında duran vəzifələrdən biri də Azərbaycan xalqının XIX-XX əsrlər tarixinin yazılmasıdır. ...XIX-XX əsrlər tarixinin yazılması üçün mən xüsusi vəsait ayıracağam".*

XX yüzilliyin əvvəllərində Şərqdə ilk demokratik dövlət quruluşunu yaratmış Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətinə çox yüksək qiymət verən ulu öndər onu yaradan şəxsiyyətlərə də böyük rəğbətlə yanaşırdı. Məhz buna görə də dahi şəxsiyyət 30 yanvar 1998-ci ildə "Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyinin keçirilməsi haqqında" Sərəncam imzalamışdır.

Məlumdur ki, ümummilli liderimiz Heydər Əliyev 29 dekabr 2000-ci ildə Yeni il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciət etmişdir. Bu müraciətdə Azərbaycan tarixinə, Azərbaycan xalqının keçdiyi tarixi yola ulu öndər tərəfindən səriştəli bir tarixçi kimi nəzər salınmış, XIX-XX yüzilliyin tarixinə xüsusi diqqət yetirilmişdir. Görkəmli dövlət xadimi Heydər Əliyevin Yeni il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciətini "Azərbaycanın tarixi salnaməsi" kimi səciyyələndirən akademik İsmayıl Hacıyev yazır: "Burada yaxın tarixə yığcam şəkildə və müdrikcəsinə baxılmış, baş verənlərə düzgün və obyektiv qiymət verilmişdir. Bu müraciətdə Azərbaycan gerçəkliyi dünyada gedən proseslərin fonunda və onun bir hissəsi kimi təhlil olunur. Keçmişimizin və müasir tariximizin elmi-nəzəri proqnozlarını verən bu müraciətdə xalqımızın keçdiyi tarixi yola dərindən nəzər salınır, mühüm tarixi proseslərə, hadisələrə, tarixi şəxsiyyətlərə obyektiv qiymət verilir, prinsipial münasibət bildirilir. Bu baxımdan "Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında" adlı irihəcmli müraciət ictimai-siyasi həyatımızın bütün sahələrinin təhlilini verən çox qiymətli bir tarixi əsərdir".

Ulu öndər müraciətində kamil tarixçi səriştəsi ilə dərin elmi-nəzəri təhlil aparmış, XX yüzillikdəki tariximizi dövrləşdirmiş və onu dörd mərhələyə (1. Azərbaycan Xalq Cümhuriyyətinin qurulması üçün münbit zəminin yaranması mərhələsi; 2. Çar Rusiyası dağılandan sonra ölkəmizin ilk dəfə müstəqilliyi əldə etdiyi dövr – Azərbaycan Xalq Cümhuriyyəti mərhələsi; 3. 1920-ci ilin aprelindən 18 oktyabr 1991-ci ilə qədər olan mərhələ; 4. 18 oktyabr 1991-ci ildə "Müstəqillik haqqında Konstitusiya Aktı"nın qəbul olunması ilə başlanan mərhələ) ayırmışdır.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin tariximizə, mədəniyyətimizə, maddi-mədəniyyət abidələrimizə hörmət, ehtiram, diqqət və qayğısı sahəsində müəyyənləşdirdiyi siyasi kurs hazırkı dövrdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət büdcəsində elmə ayrılan vəsaitin, alimlərin, o cümlədən tarixçilərin əməkhaqlarının, elmi dərəcələrə görə verilən maaşların artırılması, AMEA-nın Tarix, Arxeologiya və Etnoqrafiya institutlarına Prezidentin ehtiyat fondundan böyük məbləğdə vəsaitlərin ayrılması və sair tədbirlər bu diqqət və qayğının təzahürü kimi diqqəti cəlb edir. Bu diqqət və qayğının nəticəsidir ki, Azərbaycan ərazisində 40-dan artıq arxeoloji ekspedisiya tədqiqatla məşğul olur, tarix və mədəniyyətimizin müxtəlif problemlərinə aid geniş tədqiqatlar aparılır, fundamental əsərlər yazılır.

Ulu öndərimizin Azərbaycan tarixinin öyrənilməsi və təbliğ edilməsi istiqamətində qarşıya qoyduğu vəzifələr Naxçıvan Muxtar Respublikasında da uğurla icra olunur. Son illər Ali Məclis Sədrinin müvafiq sərəncamı ilə 1200-dən çox abidənin qeydə alınması və pasportlaşdırılması, 60-dan çox abidənin bərpa edilməsi bunun bariz ifadəsidir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan tarixi" çoxcildliyinin hazırlanması və nəşr olunması barədə" 6 avqust 2012-ci ildə imzaladığı Sərəncama uyğun olaraq, 2013-cü ilin sonlarında Əcəmi nəşriyyatında Naxçıvan tarixinin I cildi çapdan çıxdı. Ümummilli liderin 90 illik yubileyinə, eyni zamanda Azərbaycan tarixşünaslıq elminə böyük töhfə olan bu əsər ulu öndərin Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvanın tarixinin obyektiv, dərindən və hərtərəfli öyrənilməsi ilə əlaqədar tövsiyə və tapşırıqlarının yerinə yetirilməsi istiqamətində atılan növbəti nəhəng bir addım oldu.

***İnanırıq ki, Azərbaycan tarixçiləri yüksək dövlət qayğısına cavab olaraq öz qüvvələrini səfərbər edəcək, xalqımızın ümummilli lideri Heydər Əliyevin tarixçilər qarşısında qoyduğu vəzifələrin, həmçinin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tövsiyə və tapşırıqlarının uğurla yerinə yetirilməsi, Azərbaycanın tarix və mədəniyyətinin tədqiqini gözləyən problemlərinin öyrənilməsi üçün səylə çalışacaqlar.***

**Fəxrəddin SƏFƏRLİ**
*tarix elmləri doktoru, professor*

3 may Beynəlxalq Mətbuat və Söz Azadlığı Günüdür

# Mətbuat və söz azadlığı insan hüquqlarının etibarlı təminatıdır

*1993-cü il dekabrın 20-də Birləşmiş Millətlər Təşkilatı Baş Məclisinin qərarı ilə may ayının 3-ü Beynəlxalq Mətbuat və Söz Azadlığı Günü elan olunmuşdur.*

Müasir dövrdə mətbuat və söz azadlığı cəmiyyətin və dövlətin demokratik inkişaf göstəricisi kimi qəbul olunur. Kütləvi informasiya vasitələri – qəzetlər, jurnallar, teleradiolar, informasiya agentlikləri və informasiyanın müntəzəm formada yayıldığı digər vasitələr cəmiyyətin inkişafına ciddi təsir göstərən, onun mahiyyətini müəyyənləşdirən siyasi sistemin tərkib hissəsidir. Kütləvi informasiya vasitələri cəmiyyətdə ictimai fikri, dövlətə inamı və sosial fəallığı formalaşdırmaqla yanaşı, həm də onları istiqamətləndirir. Bu mənada kütləvi informasiya vasitələri dünyada demokratiya və informasiya azadlığının mühüm vasitəsi hesab edilir.

Təsadüfi deyil ki, söz, mətbuat azadlığı insan hüquq və azadlıqları ilə bağlı bütün beynəlxalq sənədlərin ana xəttini təşkil edir. İnsan Hüquqları Bəyannaməsi, İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyası, Mülki və Siyasi Hüquqlar üzrə Amerika Konvensiyası və digər beynəlxalq sənədlərdə özünüifadəetmə azadlığı ən ali hüquq kimi təsbit olunmuşdur.

Bu gün ölkəmizdə kütləvi informasiya vasitələrinin azad fəaliyyəti və inkişafı üçün zəruri tədbirlər görülür. Azərbaycan Respublikasının Konstitusiyasında informasiya azadlığı və onun təmin olunması dövlətimizin ali məqsədlərindən biri kimi təsbit edilmişdir. Eyni zamanda ümumbəşəri dəyərləri, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunu özünün inkişaf modeli kimi qəbul edən Azərbaycan Respublikası insan hüquqları, söz və mətbuat azadlığının təmin edilməsi ilə bağlı mövcud olan əksər beynəlxalq konvensiya və sazişlərə qoşulmuşdur. Ölkəmizdə kütləvi informasiya vasitələrində fikir demək, hadisələrə münasibət bildirmək üçün geniş imkanlar vardır.

Azərbaycanda söz azadlığının bərqərar olunması və onun əsas daşıyıcısı olan müstəqil mətbuatın yaradılması ulu öndərimiz Heydər Əliyevin adı, siyasi və dövlətçilik fəaliyyəti ilə sıx bağlıdır. Ümummilli liderimiz ölkəmizdə söz azadlığının təmin olunmasına, kütləvi informasiya vasitələrinin cəmiyyət həyatındakı rolunun artırılmasına yüksək qiymət vermiş, jurnalistlərin peşə fəaliyyətləri üçün geniş imkanlar yaratmışdır. Dahi şəxsiyyətin kütləvi informasiya vasitələrinin inkişafına göstərdiyi böyük diqqət və qayğı nəticəsində qısa zamanda bu sahədə fəaliyyəti tənzimləyən zəngin qanunvericilik bazası yaradılmış, mətbuat orqanlarının maddi-texniki təminatı və iqtisadi müstəqilliyi gücləndirilmiş, mətbuat-dövlət münasibətlərində mütərəqqi ənənələrin əsası qoyulmuşdur.

Ulu öndər Heydər Əliyevin 1998-ci il 18 iyun tarixli Sərəncamı ilə təsdiq edilmiş "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı", həmçinin 1998-ci il avqustun 6-da imzaladığı "Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" Fərman ölkəmizdə söz, mətbuat, fikir azadlıqlarının təminatına əlverişli şərait yaratmış, Müstəqil Dövlətlər Birliyi məkanında ilk dəfə olaraq Azərbaycanda senzura ləğv olunmuşdur. 2000-ci ildə Mətbuat və İnformasiya Nazirliyinin ləğv olunması isə dövlətin mətbuat üzərində nəzarətinə tamamilə son qoymuşdur. "Kütləvi informasiya vasitələri haqqında", "Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında", "Məlumat azadlığı haqqında", "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında", "Ətraf mühitə dair informasiya almaq haqqında" Azərbaycan Respublikasının qanunlarının qəbul edilməsi kütləvi informasiya vasitələrini cəmiyyətin dinamik şəkildə demokratikləşməsinə təsir edən qüdrətli vasitəyə çevirmişdir.

Bu gün ulu öndərin mətbuat və söz azadlığı sahəsindəki mütərəqqi siyasəti Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Kütləvi informasiya vasitələrinin müstəqil fəaliyyəti, jurnalistlərin öz iradələrini azad şəkildə ifadə etməsi üçün hərtərəfli şərait yaradılmışdır. Söz və mətbuat azadlığını yüksək qiymətləndirən dövlət başçısı demişdir: ***"Söz və informasiya azadlığı hər bir ölkə üçün, ölkənin inkişafı üçün ən vacib olan məsələlərdən biridir. Söz və informasiya azadlığı, demokratiyanın inkişafı, hüquqi dövlətin qurulması Azərbaycanda çox vacib olan məsələlərdir. Mən hesab edirəm ki, bu sahədə ölkəmiz çox böyük və uğurlu yol keçmişdir".***

Hazırda Azərbaycan Respublikasında qabaqcıl və azad mətbuat formalaşmışdır. Ölkəmizdə 5 minə yaxın mətbuat orqanı, onlarla jurnalist təşkilatı, ümumrespublika, peyk, regional və kabel televiziyaları, informasiya agentlikləri fəaliyyət göstərir.

Söz, fikir, məlumat azadlığı, o cümlədən mətbuatın inkişafı ilə bağlı həyata keçirilən tədbirlər Naxçıvan Muxtar Respublikasında da uğurla davam etdirilir. Muxtar respublikada azad mətbuatın inkişafı istiqamətində mühüm addımlar atılmışdır. 1995-ci ildən ötən dövr ərzində bütün sahələrdə əldə olunan inkişaf və yüksəliş muxtar respublikanın kütləvi informasiya orqanlarını da əhatə etmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun mətbuat orqanlarına hərtərəfli qayğısı keyfiyyət dəyişikliklərinin yaranmasına səbəb olmuşdur. Ali Məclis Sədrinin "Naxçıvan Muxtar Respublikasının dövlət mətbuat orqanlarının maddi-texniki vəziyyətini yaxşılaşdırmaq tədbirləri haqqında" Sərəncamı kütləvi informasiya vasitələrinin hərtərəfli inkişafı istiqamətində yeni üfüqlər açmışdır.

Kütləvi informasiya orqanlarının maddi-texniki vəziyyətinin yaxşılaşdırılması muxtar respublikada həm də bu sahədə qəbul olunan qanunların tətbiqi və icrası baxımından mühüm əhəmiyyət daşıyır. Artıq "Şərq qapısı" qəzeti həftədə 5 dəfə nəşr olunur. Bu gün muxtar respublikanın hər bir şəhər və rayonunun özünün mətbu orqanı vardır və onların dövriliyi təmin edilib. Bu sahədə qazanılan uğurlar eyni zamanda elektron medianı da əhatə edir. Belə ki, 2011-ci ildə Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin binası yenidən qurularaq istifadəyə verilmiş, komitədə yeni nəsil rəqəmsal avadanlıqlar quraşdırılmışdır. "Kanal 35" televiziyasının, "Naxçıvanın səsi" radiosunun da fəaliyyəti üçün lazımi şərait yaradılmışdır. 2005-ci ildə Naxçıvan Mətbuat Şurasının, 2007-ci ildə isə Televiziya və Radio Şurasının yaradılması da muxtar respublikamızda bu sahədə həyata keçirilən tədbirlərdəndir. Artıq muxtar respublika sakinlərinə yüksək səviyyədə İP və rəqəmsal televiziya yayımı, genişzolaqlı internet və digər elektron xidmətlər göstərilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili haqqında" 2011-ci il 15 iyul tarixli Fərmanına uyğun olaraq, dövlət idarəçiliyində informasiya və kommunikasiya texnologiyalarından istifadə olunması prioritet istiqamətə çevrilmiş, muxtar respublikada informasiya cəmiyyətinə keçid və elektron hökumətin formalaşdırılması sahəsində mühüm tədbirlər görülmüşdür. Bu gün informasiya sistemlərinin inkişafına, informasiya təhlükəsizliyinin təmin edilməsinə, elektron hökumət, elektron imza və elektron sənəd dövriyyəsinin tətbiqinə, elektron poçtmaliyyə xidmətlərinin, ayrı-ayrı sahələr üzrə informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin genişləndirilməsinə, internetdən istifadə səviyyəsinin artırılmasına xüsusi diqqət yetirilir.

Fikir və söz azadlığı məlumat azadlığı ilə üzvi surətdə bağlıdır. Məlumat azadlığının tərkib hissəsi isə informasiya əldə etmək hüququdur. Muxtar respublikada məlumat azadlığının və informasiya əldə etmək hüququnun daha effektiv müdafiə və təmin edilməsi məqsədilə 2011-ci il dekabrın 29-da "Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda müvafiq dəyişikliklər edilmişdir. Qanunda edilən dəyişikliyə əsasən, "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanunundan irəli gələn vəzifələrin Naxçıvan Muxtar Respublikasında yerinə yetirilməsinə nəzarəti həyata keçirən təsisat qismində Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) müəyyən edilmişdir. Qanunun icrasını və Müvəkkilin bu sahədə fəaliyyətini təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən informasiya sahibi olan dövlət orqanları və yerli özünüidarə orqanları müəyyən edilmiş, onlar haqqında məlumat bazası yaradılmış, eləcə də həmin orqanların rəsmi internet səhifələri və elektron poçt ünvanları məlumat bazasına daxil edilmişdir. Görülən bütün bu tədbirlər muxtar respublikada fikir və söz azadlığının, informasiya əldə etmək hüququnun daha səmərəli təmin edilməsinə xidmət edir.

***Bu gün ölkəmizdə demokratiyanın keşiyində dayanan azad və müstəqil milli mətbuatımız vardır. Təbii ki, azad mətbuatın fəaliyyətinin getdikcə gücləndirilməsi cəmiyyətin hər bir üzvünün öz fikrini sərbəst şəkildə ifadə etməsinə imkan verir. Bu da mətbuat və söz azadlığının təmin olunmasında mühüm amildir.***

***Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının mətbuat xidməti***

---

5 may Əlillərin Hüquqlarının Beynəlxalq Müdafiəsi Günüdür

# Muxtar respublikamızda əlillərin cəmiyyətə inteqrasiyası diqqət mərkəzindədir

***Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının qərarı ilə 1992-ci ildən etibarən hər il mayın 5-i dünyada "Əlillərin Hüquqlarının Beynəlxalq Müdafiəsi Günü" kimi qeyd olunur. Bu günün qeyd olunmasında məqsəd beynəlxalq ictimaiyyətin diqqətini əlilliyi olan insanların hüquqlarının müdafiəsinə yönəltmək, onların cəmiyyətə inteqrasiyasını gücləndirməkdən ibarətdir.***

Azərbaycan Respublikasının Konstitusiyasında vətəndaş hüquq və azadlıqları, o cümlədən sosial təminat hüququ dövlətin ali məqsədi kimi təsbit edilmişdir. Konstitusiyanın 38-ci maddəsində hər kəsin qanunla müəyyən edilmiş yaş həddinə çatdıqda, xəstəliyinə, əlilliyinə, ailə başçısını və əmək qabiliyyətini itirdiyinə, işsizliyə görə və qanunla nəzərdə tutulmuş digər hallarda sosial təminat hüququna malik olduğu təsbit olunmuşdur.

Ümummilli liderimiz Heydər Əliyevin ölkəmizə rəhbərliyi dövründə əlillərin hüquqlarının müdafiəsi istiqamətində ardıcıl tədbirlər görülmüş, bu sahədə dövlət siyasətinin həyata keçirilməsi üçün zəngin qanunvericilik bazası yaradılmışdır. Ulu öndərin müəyyənləşdirdiyi siyasi xətt bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Son illər ölkəmizdə əlillər, o cümlədən sağlamlıq imkanları məhdud uşaqlar üçün bərabər imkanların yaradılması, onların sosial müdafiəsinin gücləndirilməsi, habelə cəmiyyətə fəal inteqrasiyasının təmin edilməsi məqsədilə bir sıra normativ-hüquqi aktlar qəbul edilmişdir. "Əlilliyin və uşaqların sağlamlıq imkanları məhdudluğunun qarşısının alınması, əlillərin və sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası və sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanunu bu kateqoriyadan olan insanların reabilitasiyasına, ictimai həyatın bütün sahələrində fərdi qabiliyyətlərinə və maraqlarına müvafiq fəaliyyət göstərmələri üçün hüquqi təminat yaradır.

Bu gün ölkəmizdə əlillərin pensiya, təqaüd və müavinətlərinin məbləğinin artırılması, həmçinin yeni təqaüd və müavinətlərin təsis edilməsi sosial siyasətin əsas istiqamətidir. Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 17 mart tarixli "Müharibə əlillərinə Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün artırılması, "Əlillik ümumi xəstəlik, hərbi xidmət dövründə xəstələnmə, əmək zədəsi və peşə xəstəliyi, hərbi əməliyyatlar keçirilən zonada olmaqla əlaqədar, Çernobıl AES-də qəzanın ləğvi ilə əlaqədar səbəblərdən baş verdikdə I qrup əlilliyə görə sosial müavinət alanlara Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün təsis edilməsi barədə fərmanları bu baxımdan mühüm əhəmiyyət kəsb edir.

Naxçıvan Muxtar Respublikasında da əlillərin və sağlamlıq imkanları məhdud uşaqların hüquqlarının təmin edilməsi, onların sosial müdafiəsi və cəmiyyətə fəal inteqrasiyası istiqamətində davamlı tədbirlər həyata keçirilir. Müvafiq kateqoriyadan olan məhdud fiziki imkanlı şəxslərin mənzil və fərdi yaşayış evi ilə təmin olunması, sağlamlıq imkanları məhdud şəxslərin müxtəlif texniki-bərpa vasitələri və protez-ortopedik məmulatlarla təmin edilməsi, onların sağlamlıqlarının bərpası istiqamətində tədbirlərin görülməsi daim diqqət mərkəzindədir. Bu gün tənha yaşayan, başqasının köməyinə ehtiyacı olan məhdud fiziki imkanlı şəxslərə evdə sosial məişət xidmətinin göstərilməsi, habelə onların məşğulluğunun və asudə vaxtlarının səmərəli təşkili istiqamətində intensiv tədbirlərin həyata keçirilməsi bu kateqoriyadan olan şəxslərin həyat səviyyəsini yüksəltmiş, onların sosial reabilitasiyası üçün geniş imkanlar yaratmışdır.

Məhdud fiziki imkanlı şəxslərə göstərilən sosial xidmətin əsas istiqamətlərindən biri onların tibbi reabilitasiyalarının təşkilidir. Naxçıvan Muxtar Respublikasında bu məsələ daim diqqət mərkəzində saxlanılır. 2013-cü il ərzində Naxçıvan Əlillərin Bərpa Mərkəzində sağlamlıq imkanları məhdud 227 nəfərin, Naxçıvan Uşaq Bərpa Mərkəzində sağlamlıq imkanları məhdud 253 uşağın, məhdud fiziki imkanlı 9 nəfərin, sağlamlıq imkanları məhdud 16 uşağın Ukrayna Respublikasının reabilitasiya müəssisələrində müalicələri təşkil edilmiş, 105 nəfərə isə respublikamızın sanatoriyalarında müalicələri üçün göndərişlər verilmişdir. Həmçinin məhdud fiziki imkanlı 45 nəfərin, o cümlədən sağlamlıq imkanları məhdud 35 uşağın Ağbulaq İstirahət Mərkəzində istirahətləri də təşkil olunmuşdur. Bununla yanaşı, sağlamlıq imkanları məhdud şəxslərin həyat fəaliyyətini yaxşılaşdırmaq məqsədilə 345 nəfərə müxtəlif texniki reabilitasiya vasitələri, 187 nəfərə protez-ortopedik, o cümlədən 73 nəfərə səyyar protez-ortopedik xidməti göstərilmiş, 54 nəfərin sosial məişət şəraitinin yaxşılaşdırılmasına, 28 nəfərin isə respublika daxilində müalicəsi ilə bağlı maddi köməklik göstərilmişdir. Müvafiq kateqoriyadan olan əlillərin yaşayış səviyyəsinin yaxşılaşdırılması da bu sahədə həyata keçirilən tədbirlərin prioritet istiqamətini təşkil edir. Müstəqilliyimizin bərpasından ötən dövr ərzində muxtar respublikada 188 müharibə əlili və şəhid ailəsi mənzil və fərdi yaşayış evi ilə təmin olunmuş, 349 müharibə əlilinə minik avtomobili verilmişdir.

Məhdud fiziki imkanlı şəxslərin sosial reabilitasiyası üzrə həyata keçirilən davamlı tədbirlər onların cəmiyyətə inteqrasiyalarına əsaslı zəmin yaratmışdır. Bu mənada Naxçıvan Regional İnformasiya Mərkəzində eşitmə və danışma məhdudiyyəti olanlar üçün daktilo əlifbası üzrə dərslər, görmə qabiliyyəti olmayanlar üçün brayl əlifbasının tədrisi üzrə kurslar təşkil olunmuş, görmə və eşitmə qabiliyyəti məhdud şəxslər üçün audio və elektron kitabxana xidməti istifadəyə verilmişdir. Həmçinin mərkəzdə daun sindromlu, ünsiyyət qurmaqda çətinlik çəkən, həmçinin zehni inkişafında və nitqində qüsurlar olan uşaqların reabilitasiyası məqsədilə kinekt oyunları otağı və defektoloji bölmə yaradılmışdır.

Hər il muxtar respublikada sağlamlıq imkanları məhdud şəxslər arasında xüsusi istedada malik olanların fərdi qabiliyyət və bacarıqlarını inkişaf etdirmək məqsədilə bədii yaradıcılıq müsabiqələri, rəsm və əl işlərindən ibarət sərgilər təşkil edilir, bədən tərbiyəsi və idmanla məşğul olmalarına şərait yaradılır. Ötən il sağlamlıq imkanları məhdud 18 yaşadək uşaqların iştirakı ilə "Naxçıvan tarixi abidələr diyarıdır" rəsm müsabiqəsinin, "Yurdumuzu tanıyırıq" bilik yarışının keçirilməsi, məhdud fiziki imkanlı rəssamların muxtar respublikamızın təbiətini tərənnüm edən rəsmlərinin Naxçıvan şəhərində keçirilən "Yay etüdləri" sərgisində nümayiş etdirilməsi bu qəbildən olan tədbirlərdir.

Son illər muxtar respublikada sağlamlıq imkanları məhdud uşaqların sosial müdafiəsi və reabilitasiyası üzrə həyata keçirilən tədbirlər onların müasir tələblər səviyyəsində təhsil almasına və cəmiyyətin fəal üzvünə çevrilməsinə əlverişli şərait yaratmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı" da bu baxımdan mühüm əhəmiyyət daşıyır.

*Muxtar respublikanın davamlı sosial-iqtisadi inkişafı məhdud fiziki imkanlı şəxslərin də sosial müdafiəsinin gücləndirilməsinə və onların həyat səviyyələrinin yüksəldilməsinə səbəb olmuşdur. Bu da əlillərin hüquqlarının daha da etibarlı qorunmasında başlıca şərtdir.*

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

# Boks üzrə muxtar respublika turniri başa çatıb



*Ümummilli lider Heydər Əliyevin anadan olmasının 91-ci ildönümü münasibətilə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə muxtar respublika Boks Federasiyasının birgə təşkil etdiyi boks üzrə Naxçıvan Muxtar Respublika turniri başa çatıb.*

Turnirin final mərhələsində 13 çəki dərəcəsində 26 idmançı qalib olmaq üçün rinqə çıxıb. İlk olaraq mübarizəyə atılan isə 38 kiloqram çəkidə yarışan Muxtar Fərzəliyev və Ayxan Cavadlı olub. Yaşlarının az olmasına baxmayaraq, Naxçıvan şəhərini təmsil edən hər iki boksçu rinqdə ustalıq nümayiş etdirib. Bu görüşdə Ayxan Cavadlı rəqibini üstələyərək öz çəkisində yarışın qalibi olub. 56 kiloqram çəki dərəcəsində Culfa rayonunu təmsil edən Kamil Qazıbəyov Sədərək təmsilçisi Nicat Ağayevlə mübarizədə üstünlük əldə edib. Sədərək təmsilçisi mübarizəsini sona qədər davam etdirsə də, qələbə üçün lazımi xalı toplaya bilməyib.

Yarışın digər bir maraqlı görüşü isə Naxçıvan şəhərinin təmsilçiləri, 60 kiloqram çəkili Tayfur Əliyev və İbrahim Cəfərzadə arasında olub. Bu görüşdə hər iki idmançı yüksək döyüş bacarığı nümayiş etdirib. Taktiki cəhətdən Tayfur Əliyevin döyüşü uğurlu alınıb. İbrahim Cəfərzadənin isə bu görüşə fiziki cəhətdən hazır olmadığı elə ilk raunddan bəlli olub. Əl hərəkətləri ilə rəqibini üzərinə çəkən İbrahim Cəfərzadəni ardıcıl yumruq seriyası ilə qarşılayıb və bu da ümumi hesabda Tayfur Əliyevi önə çıxarıb.

Ümumiyyətlə, bu turnirdə 38 kiloqram çəki dərəcəsində Ayxan Cavadlı, 42 kiloqramda Məhəmməd Novruzov, 46 kiloqramda Ayxan Qubuşov, 48 kiloqramda Kərim Babayev, 52 kiloqramda Sərxan Əliyev, 54 kiloqramda Nihad Quliyev, 56 kiloqramda Kamil Qazıbəyov, 60 kiloqramda Tayfur Əliyev, 64 kiloqramda Arif Bayramov, 69 kiloqramda Elmar Qasımov, 75 kiloqramda Çingiz Cəfərov, 81 kiloqramda Zəfər Ağamalıyev, 91 kiloqramda Rəvan Əliyev fəxri kürsünün birinci pilləsində yer alıblar.

Final qarşılaşmalarından sonra qalib idmançılara Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, eləcə də muxtar respublika Boks Federasiyası tərəfindən diplom və qiymətli hədiyyələr verilib.

Bununla da, boks turniri başa çatıb.

Qeyd edək ki, boks üzrə muxtar respublika turniri Naxçıvan Muxtar Respublikası Boks Federasiyasının internet saytı üzərindən canlı yayımlanıb.






**Səbuhi HÜSEYNOV**

# “Qədim Ordubad” kitabının təqdimatı olub

*“Uzunmüddətli tarixi, arxeoloji, etnoqrafik tədqiqatların nəticəsi olaraq meydana çıxan “Qədim Ordubad” (“The Ancient Ordubad”) kitabının Azərbaycan və ingilis dillərində işıq üzü görməsi xüsusi əhəmiyyət daşıyır”.*

Bu fikirlər dünən AMEA Naxçıvan Bölməsində keçirilən “Qədim Ordubad” kitabının təqdimat mərasimində səsləndirilib. AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev son illər ərzində elm adamları tərəfindən yazılmış çoxsaylı kitabların bilavasitə muxtar respublika rəhbərinin qayğısı ilə yüksək poliqrafik keyfiyyətlə çap edilməsinin elm adamlarına diqqətin bariz nümunəsi olduğunu deyib. Bölmənin sədri elm adamlarının adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını ifadə edib.

AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun böyük elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Zeynəb Quliyeva “Qədim Ordubad” kitabı haqqında “söz” adlı məruzəsində kitabın elmi məziyyətlərindən danışıb, kitabda yer alan bölmələr haqqında ətraflı məlumat verib. Vurğulanıb ki, tarixçilərimizin Naxçıvanın 90 illik yubileyinə hədiyyəsi olan kitabın müəllifləri – AMEA-nın müxbir üzvləri Vəli Baxşəliyev, Hacı Qadir Qədirzadə, tarix elmləri doktoru Abbas Seyidov və tarix üzrə fəlsəfə doktoru Bəhlul İbrahimli bu tədqiqat əsərini Naxçıvanın tarixinə və etnoqrafiyasına dair ciddi faktlar əsasında yazıblar.

AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru Toğrul Xəlilov, İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun şöbə müdiri, filologiya üzrə fəlsəfə doktoru Rafiq Babayev, Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun elmi işçisi Elnur Kəlbizadə çıxış edərək müəllifləri bu dəyərli tədqiqat əsərinin çapdan çıxması münasibətilə təbrik ediblər. Qeyd edilib ki, bu sanballı tədqiqat əsəri həm də gələcəkdə aparılacaq elmi araşdırmalar üçün gənc tədqiqatçılara istiqamətverici rol oynayacaq.

Kitabın müəlliflərindən AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev, tarix elmləri doktoru Abbas Seyidov və tarix üzrə fəlsəfə doktoru Bəhlul İbrahimli çıxış edərək Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin birbaşa qayğısı ilə kitabın çap edilməsinin gələcək tədqiqatlara da stimul verdiyini bildirib və bununla əlaqədar minnətdarlıqlarını ifadə ediblər.

**Xəbərlər şöbəsi**

# May ayında kənd təsərrüfatı sahəsində hansı işlər görülməlidir?

*Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyi may ayı ərzində torpaq mülkiyyətçilərinə, həmçinin fermerlərə bitkiçilik və heyvandarlıq sahələrində mövsümlə bağlı aşağıdakı işlərin görülməsini tövsiyə edir.*

### Meyvə və üzüm bağlarında

Bu ayda meyvə bağlarında suvarma işi davam etdirilməli, müşahidə edilən bakterial xəstəliklərə qarşı “Bordo” mayesi və yaxud onun əvəzedicilərindən biri ilə çiləmə aparılmalıdır. Eyni zamanda meyvə ağaclarındakı zərərvericilər “Desis”, “Arrivo”, “Dentis” preparatlarından birindən istifadə etməklə məhv edilməlidir.

Üzüm bağlarında da suvarma işləri davam etdirilməlidir. Üzüm tənəklərində xəstəliklərə qarşı “Bordo”, “Polikarbatsin”, “Xemosin”, “Pidomil” preparatlarından biri ilə, zərərvericilərə qarşı isə “Desis”, “Karate”, “Nissoran”, “Neoron” preparatları ilə çiləmə aparılır.

### Əkinçilikdə

Bu dövrdə bitkilərin sələfinə uyğun torpaq sahələri növbəli əkin sisteminə əməl edilməklə seçilir və əkinə hazırlanır. Toxumla əkilən tərəvəzlərin və dənli-paxlalı bitkilərin əkinləri davam etdirilir. Bundan başqa, şitillə əkilən tərəvəzlərin (pomidor, badımcan, bibər, kələm və sair) yeri hazırlanaraq əkin aparılmalıdır.

Bu ayda əkinçilər toxumluq kartof yumrularını dərmanlamaqla əkin aparmalıdırlar. Qeyd edək ki, kartof əkinlərində bitkilərə yemləmə gübrəsi verilməli, dibdoldurma işləri aparılmalıdır. Bu zaman xəstəlik və ziyanvericilərə qarşı mübarizə tədbirləri digər aqrotexniki tədbirlərlə birlikdə (suvarma, alaqlama) davam etdirilir.

Bu ay da bostan bitkilərinin, eləcə də qarğıdalı və günəbaxan əkinlərinin aparılması üçün münasib zaman hesab edilir.

Taxil sahələrində vegetasiya suvarmaları davam etdirilməli, zəmilərə 2-ci yemləmə gübrəsi verilməlidir. Həmçinin sahələrdə alaq otlarına qarşı kimyəvi mübarizə aparılır. Bunun üçün 2,4 D amin duzu və ya hektofermin herbisidlərindən istifadə edilərək alaqlara qarşı çiləmə aparılması məsləhətdir.

Bu ay həm də yonca sahələrində birinci biçin aparılır.

### Maldarlıqda

May ayında doğum artdığı üçün inək və camışlara daha çox yaşıl yem verilməlidir. Mal-qara otarılmaq üçün örüşə aparılmalı, doğumu yaxınlaşan inək və camışlar isə ətrafda gəzintiyə çıxarılmalıdır. Cavan malların yemləndirilməsinə diqqət artırılmalıdır.

### Qoyunçuluqda

Bu ay qoyunların qırxılması məqsədilə müvafiq tədbirlər görülməlidir. Qırxım qurtardıqdan sonra qoturluğa və digər gənə xəstəliklərinə qarşı qoyunlar 6-7 gün fasilə ilə iki dəfə “Kreolin-heksoxloran” emulsiyası olan məhlulla (vannalarda) çimdirilməlidir. Quzular moniezioz xəstəliyinə qarşı dərmanlanmalı, brüsellyoz, fassilyoz, diktiokaliyoza qarşı tədbir görülməlidir.

### Quşçuluqda

Bu aydan etibarən istilərin düşməsi ilə əlaqədar toyuqların yumurta məhsuldarlığının azalmasının qarşısını almaq üçün yem payının tərkibi qida maddələri hesabına bir qədər zənginləşdirilməlidir. 18 aylıq yaşda olan toyuqlar məhsuldarlığı aşağı düşdüyündən çıxdaş edilərək satışa verilməli, onların yeri yumurtlamağa başlayan fərələr hesabına bərpa edilməlidir. Quşların çiçək və taun xəstəliyinə yoluxmaması üçün profilaktik peyvəndləmə işi aparılmalıdır.

### Arıçılıqda

May ayının əvvəllərindən etibarən arı ailələri çiçək bol olan ərazilərə köçürülməli, ehtimal olunan xəstəliklərə qarşı zoobaytarlıq mütəxəssisləri ilə birgə profilaktik iş aparılmalıdır.

**Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti**

# IV ümumuniversitet bilik yarışı

*Naxçıvan Dövlət Universitetində Azərbaycan xalqının ümummilli lideri, görkəmli dövlət xadimi Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə və Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illik yubileyinə həsr olunmuş “Heydər Əliyev və Naxçıvanın muxtariyyəti” mövzusunda ingilis dilində IV ümumuniversitet bilik yarışı keçirilmişdir.*

Yarış başlanmazdan əvvəl universitetin rektoru, professor Saleh Məhərrəmov çıxış edərək ölkədə aparılan təhsil və gənclər siyasətinin uğurlarından danışmışdır. Vurğulanmışdır ki, dahi rəhbər Heydər Əliyevin Azərbaycan dövlətçilik tarixində müstəsna yeri vardır. Azərbaycançılıq ideologiyasının yaradıcısı ümummilli lider Heydər Əliyev öz müdrik siyasəti, dönməz əqidəsi və tarixi uzaqgörənliyi sayəsində milli dövlətçilik ideyasının gerçəkləşdirilməsinə, müasir Azərbaycan dövlətinin qurulmasına və xalqımızın müstəqillik arzusuna çatmasına nail olmuşdur. Rektor həmçinin ingilis dilində tələbələr arasında belə yarışların keçirilməsinin məqsədəuyğun olduğunu demişdir.

Beynəlxalq münasibətlər və xarici dillər fakültəsinin dekanı, filologiya üzrə fəlsəfə doktoru, dosent Qurban Qurbanlı bilik yarışı haqqında iştirakçılara məlumat vermişdir.

Fakültə komandaları arasında püşkatmadan sonra informasiya texnologiyalarının tətbiqi ilə bilik yarışına start verilmişdir. Qeyd edək ki, universitetdə təhsil alan xarici tələbələr də viktorinada iştirak etmişlər.

On iki komandanın iştirakı ilə keçirilən yarışda 72 tələbə iştirak etmişdir. Viktorinanın qalibi Sosial idarəetmə və hüquq fakültəsinin komandası olmuşdur. Beynəlxalq münasibətlər və xarici dillər fakültəsinin iki komandası II və III yerləri bölüşmüşlər. İki mərhələdə keçirilən bilik yarışının qalib komandaları və fəal iştirakçıları diplom və hədiyyələrlə mükafatlandırılmışlar.

**Mina QASIMOVA**

## Tender elanı

İkinci Azərbaycan Kənd İnvestisiya Layihəsinin Naxçıvan Regional Əməliyyatlar Ofisinin əhatə etdiyi Babək rayonunun Qoşadizə icmasının tender komissiyası icma qrupunun hazırladığı “Elektrik sistemlərinin bərpası və genişləndirilməsi” adlı layihənin icrası məqsədilə keçirilən tenderdə iştirak etmək iddiasında olan bütün hüquqi və fiziki şəxsləri əməkdaşlığa dəvət edir.

Tender komissiyasına aşağıdakı sənədlər təqdim olunmalıdır:

* *Maraq məktubu*
* *Nizamnamə*
* *Maddi-texniki təminat və insan resursları barədə məlumat*
* *Son illərdə infrastruktur tipli layihələrdə iş təcrübəsinin olması*
* *Maliyyə vəziyyəti barədə arayış.*

Qeyd olunmuş sənədlər toplusunu 12 may 2014-cü il, saat $18^{00}$-ə kimi tender komissiyasına təqdim etmək lazımdır.

***Babək rayonu, Qoşadizə kəndi, tender komissiyası icma qrupunun sədri: Allahverdi Allahverdiyev***
***Əlaqə telefonu: (070) 377-50-53***

## Bildiriş

Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi tərəfindən 07.IV.2001-ci il tarixdə qeydiyyata alınmış “Karbon Qazı Zavodu” Açıq Səhmdar Cəmiyyətinin “Karbon Qazı Zavodu” Məhdud Məsuliyyətli Cəmiyyətə çevrilməsi ilə əlaqədar olaraq 07.II.2007-ci il tarixdə dövlət qeydiyyatına alınmış səhmləri dövriyyədən çıxarılaraq ləğv edilir.

## İtmişdir

Naxçıvan şəhərinin Hacıniyyət kənd sakini Novruzov Kərəm Bəşir oğlunun adına Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən verilmiş 103013001616 reyestr nömrəli daşınmaz əmlakın pasportu itdiyindən etibarsız sayılır.

## Allah rəhmət eləsin

Naxçıvan Dövlət Universitetinin İqtisad fakültəsinin professor-müəllim kollektivi dekan müavini Müslüm Cabbarzadəyə, dayısı **ŞAHİN SADIQOVUN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Naxçıvan Dövlət Universitetinin Azərbaycan tarixi kafedrasının müdiri Zəhmət Şahverdiyev, əməkdaşlardan Allahverdi Hüseynov, Elçin Zamanov və Xəzər Hüseynov Müslüm Cabbarzadəyə, dayısı **ŞAHİN SADIQOVUN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Dövlət Universitetinin Mühasibat uçotu və maliyyə kafedrasının müdiri Teymur Abbasov və kafedranın əməkdaşları Müslüm Cabbarzadəyə, dayısı **ŞAHİN SADIQOVUN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Dövlət Universitetinin İqtisadiyyat kafedrasının əməkdaşları Müslüm Cabbarzadəyə, dayısı **ŞAHİN SADIQOVUN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**ŞƏRQ qapısı**
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Elnur Kəlbizadə
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 400